**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANIN QAZAX QƏZASINDA ƏSİLZADƏLƏRİN ŞƏCƏRƏSİ

İxtisas: 5102.01- Etnoqrafiya və etnologiya

Elm sahəsi: **Tarix**

İddiaçı: **İsmayıl Balı oğlu Umudlu**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı– 2023**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun "Tarixi etnoqrafiya" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor
**Teymur Əmiraslan oğlu Bünyadov**

Rəsmi opponentlər: tarix elmləri doktoru, professor
**Nərgiz Məlik qızı Quliyeva**

tarix elmləri doktoru, dosent
**Əsgər Sücayət oğlu Əhməd**

tarix üzrə fəlsəfə doktoru
**Sevinc Akif qızı Nəsirova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A. Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor
**Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının elmi katibi: tarix elmləri doktoru, dosent
**İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: tarix elmləri doktoru, professor
**Fəzayıl İmran oğlu Vəliyev**

# I.DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Nəsillərin (soyların) və ailələrin mənşəyini, tarixini və qohumluq bağlarını özündə əks etdirən şəcərələr və bu sahə ilə məşğul olan şəcərəçilik (genealogiya) hər zaman öz aktuallığını saxlayan, elmi və ictimai maraq obyekti, ümumbəşəri ənənədir. İlk şəcərə örnəklərini antik müəlliflər və Bibliya təqdim etdiyindən, deməli, şəcərəçiliyin ən azından iki min il tarixi vardır. Tarixi qaynaqlar Şərq dünyasında, o cümlədən qədim türklərdə də şəcərəçiliyin təxminən bir bu qədər yaşı olduğundan xəbər verir. Bütün türk xalqlarında olduğu kimi, azərbaycanlılar da hələ ilk orta əsrlərdən şəcərəçiliklə məşğul olur, hökmdar sülalələri, imtiyazlı təbəqə əsil-nəcabət faktorundan istifadə edirdi. Şəcərə onların seçkin bir nəsildən gəldiklərini göstərən sənəd olmaqla, xüsusi önəm daşıyırdı. Bütün sultan, xan sülalələrinin saraylarında hökmdarın və irsi hakimlərin, məhəlli idarəçilərin legitimliyini əsaslandıran sənəd olaraq şəcərələri nəzarətdə saxlamağa ciddi önəm verilmiş və 1920-ci ilə qədər bu ənənə azərbaycanlıların əsilzadə soylarının (ailələrinin) timsalında yaşadılmışdı.

Buna rəğmən sovet tarix və etnoqrafiya elmində genealogiya daha çox hakim sülalələr, aristokratiya, yəni dövlətçilik ideyası və ənənəsinin daşıyıcıları ilə bağlı olduğundan kommunist məfkurəsinin, tarixə marksist baxışın mahiyyətindən irəli gəlməklə, önəmli hesab olunmurdu.Sovet dönəmində mədəniyyət tariximizin ideoloji təsir altında qalmasının sonralar böyük öndər Heydər Əliyev də qeyd etmiş, *"tariximizi özümüz istədiyimiz kimi yaza bilmədiyimizi"*[1] xatırlatmış, *"o vaxtkı ümumi ideologiyanın təsiri, yaxud bu ideologiyanın tələbi ilə yazılan tarixin artıq bizi qane etmədiyini"*[2] demişdi. Ümummilli lider elm adamları, ziyalılar, xalqla görüşlərində milli dəyərlərə, ənənələrə sədaqəti[3], *"itirdiklərimizi bərpa etməyi"* ön plana çəkir[4], *"kimliyimizi*

---

[1]Əliyev, H. Ə. Milli varlığımızın mötəbər qaynağı /Dədə Qorqud dünyası (məqalələr). –Bakı: Öndər Nəşriyyat, –2004. s.12

[2] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir. [46 cilddə] / Heydər Əliyev. – Bakı: Azərnəşr. c.8, –1998.– s.186

[3] Yenə orada. c.15, –2005. –s.161; c.16, –2005. – s.101; c.19, –2006.– s.81

*tam müəyyən etməyi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirməyi"* zəruri hesab edirdi[5]. Milli Elmlər Akademiyasının rəhbərliyi, həqiqi və müxbir üzvləri, institut direktorları və aparıcı alimləri ilə görüşündə (1997) Azərbaycan xalqının həqiqi tarixinin, özəlliklə də XIX-XX əsrlərin təhriflərdən uzaq, həqiqi tarixinin yaradılmasını bir vəzifə olaraq qarşıya qoyurdu[6]. Ümummilli liderziyalılarla görüşlərində *"öz milli dəyərlərimizi, köklərimizi, tariximizi olduğu kimi təsvir etməyi"* təşviq etməsində, *"öz tarixi köklərini, tarixi keçmişini, milli özgünlüyünü və milli ləyaqətini dərindən dərk etmək"*[7] kimi tövsiyələrində etnoqrafların da elmi vəzifələrini müəyyənləşdirmişdir. 1999-cu ildə Əsilzadələr Məclisi yaradılması ideyası doğulanda və bu qurumun 1 saylı Şəhadətnaməsi Heydər Əliyevə təqdim ediləndə, Ümummilli lider təbii ki, milli aristokratiyanın tarixinin öyrənilməsini də ehtiva edən belə bir təşəbbüsü *"Azərbaycanın bu günü və gələcəyi üçün lazımlı iş"*[8]hesab etmişdi.

Ümummilli lider Heydər Əliyevin tövsiyə etdiyi kimi, millətin öz tarixi kökünü yaxşı bilməsinin lüzumu XIX əsrin sonları – XX əsrin əvvəllərində *"ümmətdən millətə keçid"*[9]prosesini yaşadığımız vaxtlardan bəri azərbaycanlıların ictimai fikrində qabarıq məsələ olaraq qalmışdır. Bu, dünyanın bir çox bölgələrində indiki etnik qarşıdurmalar, ziddiyyətlər zəmanəsində ciddi etnoloji problemlər sırasındadır.

1920-ci ilə qədər Güney Qafqazın mərkəzi coğrafiyasında daha geniş ərazini əhatə edən Qazax qəzası üzrə əsilzadə nəsillərin şəcərələri bölgənin tarixən qərarlaşmış etnik, siyasi, ictimai, iqtisadi və

---

[4] Əliyev, H. Ə. Milli varlığımızın mötəbər qaynağı /Dədə Qorqud dünyası (məqalələr). −Bakı: Öndər Nəşriyyat, −2004. s.12

[5] Yenə orada. s.7.

[6] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir. [46 cilddə] / Heydər Əliyev. − Bakı: Azərnəşr. c.8, − 1998. − s.187

[7] Yenə orada. c.19, −2006. − s. 82, 108

[8] Yenə orada. c. 20, −2007. − s.197

[9] Балаев,А.Г. Азербайджанские тюрки: процессы формирования нации и национальной идентичности на рубеже XIX-XX вв / А.Балаев. −Баку: Qanun, −2010. –s.155.

mədəni mənzərəsini daha dolğun şəkildə təsəvvürə gətirməyə imkan yaratdığından onların tədqiqi aktual məsələdir.

Üç dövlətin sərhədlərinin qovuşduğu çox mühüm məkanda yerləşən Qazax bölgəsinin keçmiş əsilzadə soylarının şəcərəsinin tədqiqi indiki mürəkkəb çağda həm də vacib etno-siyasi məsələ olaraq önəm daşıyır. Belə ki, yazılı qaynaqlarda (Bizans, ərəb, gürcü, Osmanlı, Azərbaycan və s.) tarixi Qazaxın ilk orta əsrlərdən bəri hüdudları, türk etnik varlığının fasiləsiz dominantlığı təsdiq olunsa da, son zamanlar bəzi erməni alimləri və siyasətçilərinin Qazax-Ağstafa bölgəsi də daxil olmaqla, Kürün sağ sahilindəki torpaqlarımızı əsassız olaraq öz mədəni keçmişlərinə aid edir, bu zəmində ərazi iddialarına haqq qazandırmağa çalışırlar. Eyni zamanda genealoji aspektdə aktivlik göstərdikləri gözdən qaçmır. Bu vəziyyət bizdən əsaslı genealoji arqumentlərlə silahlanmağı tələb edir. “Qonşular” tarixi materiallarında çox vaxt onların türk-müsəlman hökmdarlardan mənsəb və mülk almış dərəbəyləri, kənd mülkədarları və s. kimi üst zümrəni təşkil edən şəxsləri şişirdilmiş statuslarda (məsələn, çar, knyaz və s. kimi) təqdim edirlər. Buna qarşılıq tarixi Qazaxda müvafiq dövrün mənsəblər sistemində kifayət qədər yüksək mövqedə olmuş türk-müsəlman əsilzadə soylarının bəzən konkret olaraq 600 ilə qədər uzanan dəqiq, daha öncəki əsrlərin idarəçilərinin isə fraqmental şəcərələri onların təmsilçilərinin tarixən malik olduqları hakim statuslar barədə daha ciddi əsaslar verə bilir.

Qazaxın dağlıq bölgəsi (Dilican, Karvansara, Barana, Qaraqoyunlu (Çəmbərək), dağlıq Şəmsəddin və s.), eləcə də əsasən Qazax-Qarapapaq tayfasına aid elatlardan təşəkkül tapmış Göyçə mahalı 1920-ci ildən bəri Azərbaycan dövlətinin sərhədlərindən kənarda qalmışdır. Tarixən Qazax xanları, sultanları, tarxanları, bəylər və ağalarının idarəsində və mülkiyyətində olmuş, son olaraq yaxın tarixdə Ağqoyunlu, Səfəvi və Avşar şahları, gürcü hökmdarları, Rusiya hakimiyyəti tərəfindən onlara aidliyi müvafiq qaydada təsbit olunan bu torpaqlara – indiki itirilmiş torpaqlar kateqoriyasından olan ərazilərə haqlı etno-mədəni iddialarımızı əsaslandırmaq üçün, yerli əsilzadə soyların keçmişi genealoji aspektdən əsaslı öyrənilmə tələb edir.

Postsovet ölkələrində insanların öz şəcərələrinə, soy tarixlərinə, ailə tarixlərinə, ailə ənənələrinə, yaşadığı və yaxud onun əcdadlarının

yaşamış olduğu bölgənin tarixinə marağı artmışdır. Bu aspektdə şəcərə ənənəsi dirçəldilir. Tanınmış soyların şəcərələri işlənir, şəcərə topluları nəşr edilir, əsilzadə familiyaların heraldikaları (onqonları) öyrənilir, genealoji sərgilər təşkil olunur. Bu işlərdən Azərbaycanda da görülür, ölkənin ictimai-siyasi tarixində, mədəni inkişafında mühüm rolu olmuş ayrı-ayrı əsilzadə soylar haqqında, onların şəcərələri də təqdim edilməklə kitablar nəşr olunur, şəcərə toplularında materiallar dərc edilir, dövri mətbuatda yazılar çıxır, televerilişlər təşkil edilir, elektron məkanda soy şəbəkələri qurulur. Bu deyilənlər keçmiş Qazax qəzası üzrə əsilzadə soyara da aiddir. Təbii ki, bu yeni reallıqda şəcərələrin tarixi-etnoqrafik baxımdan tədqiqi ümumi maraq dairəsindədir.

Şəcərəçilik insanları, ölkələri və xalqları bir-birindən ayıran deyil, bir-birinə bağlayan elementləri - qan qohumluğu tellərini, konkret insanların həyatını, taleyini öyrənməkdir. Şəcərələr insanın öz keçmişində heç kəsi unutmamasına yardım edən, öz nəsil-tayfa ənənələrindən uzaq düşməyə, yaxud kökdən ayrılmağa qoymayan, soydan (millətdən) qırılma halının qarşısını alan təsirli bir sənəd olması etibarilə, eyni zamanda uzaq və yaxın ölkələrin vətəndaşlarını bir-birinə yaxınlaşdıran vasitə sayılır.

Şəcərələrin elmi baxımdan tədqiqi hər bir vətəndaşın öz şəcərəsinə marağının artmasına, ümumən şəcərəçilik ənənəsinin dirçəldilməsinə təkan verər. Bu kimi reallıqlar Azərbaycan etnoqrafiya elmində şəcərələrin tədqiqi probleminə ciddi yanaşmanı zəruri edir.

Dissertasiya işi bütövlükdə Azərbaycan xalqının 1920-ci ilə qədər aristokratiya zümrəsinə aid olmuş, ölkənin həyatında aparıcı rol oynamış soylarının tarixlərinin qəzalar üzrə tədqiqinə bir vəsilə olmaq baxımından da önəm kəsb edir.

Mövzunun işlənmə dərəcəsinə gəldikdə, bu gün üçün Azərbaycan tarix elmində şəcərəçilik ayrıca köməkçi bir sahə kimi formalaşma mərhələsindədir və bu mövzuda bütöv analitik tədqiqat əsəri ortada yoxdur. Lakin bununla belə Azərbaycanda hələ 1970-ci illərdən etibarən milli özünüdərk tendensiyasının güclənməsi ilə soykök, milli-mənəvi mədəniyyət və tariximizlə bağlı məsələlər aktuallıq kəsb edəndə, bəzi tarixi tədqiqatlarda paralel olaraq şəcərə komponentinə də diqqət yetirilməyə başlamış, ayrı-ayrı tədqiqatlara əlavə qismində şəcərə cədvəlləri daxil edilmiş və o vaxtdan bəri

şəcərələrin işlənməsi, cədvəllərin tərtibi və təqdimində - ümumazərbaycan kontekstində müəyyən işlər görülmüşdür. Bunun ilk örnəklərindən birini şərqşünas Z.M.Bünyadov "Azərbaycan Atabəyləri dövləti" əsərində təqdim etmişdir. Bu əsərin sonunda ayrıca cədvəllər şəklində Azərbaycan Atabəyləri və həmin yüzillərdə hakimiyyət sürmüş digər sülalələr həm şəcərəvi, həm də sülaləvi qaydada təqdim olunur. Azərbaycan Atabəylərinin, İraq Səlcuqilərinin nəsil şəcərəsi, Gürcü çarlarının, xəlifələrin, Böyük Səlcuq sultanlarının, Şirvanşahların, Mosul Atabəylərinin, Xarəzmşahların, Fars Atabəylərinin, Marağa və Ruin-Dej hakimlərinin, İraqi-Əcəm hakimləri olmuş məmlüklərin sülaləsi ardıcıllıqla verilir[10]. Əlbəttə, bu şəcərə cədvəllərinin tərtibində XIII yüzilin ərəbdilli tarixçisi Sədrəddin Hüseyninin "Əxbar əd-daulət əs-Səlcuqiyyə" ("Səlcuqilər Dövləti haqqında məlumatlar") əsəri ilkin qaynaq olaraq Z.M.Bünyadova zəngin material vermişdir[11]. Eyni zamanda tarixçi O.Əfəndiyev orta əsr qaynaqlarına isnad etməklə, Səfəvilər və onlarla əlaqəli sultan sülalələrinin şəcərə cədvəllərini təqdim etmişdir[12].

Genealoji elementlərin güclü olduğu fundamental tədqiqatlara daha bir örnək Sara Aşurbəylinin "Şirvanşahlar dövləti" əsəridir. Burada erkən Şirvanşahlardan bəri Şirvan hökmdarları sülaləsi şəcərəvi ardıcıllıqla və hərbi-siyasi hadisələrin fonunda təsvir edilir[13]. Lakin onların şəcərələri cədvəl şəklində təqdim olunmur.

Etnik tariximizin daha erkən çağları - Hun İmperiyası dönəmi (e.ö. III yüzil – b.e. III yüzili) türklərinin qüdrətli imperatorları Tümən xan və oğlu Mete xaqanın, Hun şanyuylarının, Güney Hun şanyuylarının (xaqanlarının), Usun qunmolarının (ali hökmdarlarının) şəcərələri rusiyalı türkoloq Lev Qumilyov tərəfindən qədim Çin

---

[10] Bünyadov, Z.M. Azərbaycan Atabəyləri dövləti / Z.M. Bünyadov. –Bakı: Elm, –1984.s.233-237

[11] ал-Хусайни, Садр ад-дин Али. «Ахбар ад-даулат ас-Селджукиййа» (Издание текста, перевод.Введение, примечания и приложения З.М.Бунятова). –Москва: Главная редакция Восточной литературы. –1980. –272 с

[12] Yenə orada. –s.286-291

[13] Aşurbəyli, S.B. Şirvanşahlar dövləti / S.B. Aşurbəyli. – Bakı: Əbilov, Zeynalov və oğulları, –2006. –323 s.

qaynaqlarına isnadla öyrənilmiş, şəcərə cədvəlləri tərtib olunaraq təqdim edilmişdir.[14]

Hökmdar sülalələrinin şəcərələrinə diqqətin davamı olaraq XVIII əsrdə yaranmış Azərbaycan xanlıqlarının irsi hakimlərinin şəcərələrinə elmi maraq 1980-ci illərdən etibarən artdı. Bu sıradan erməni tarixçilərinin saxtakarlığı və bu zəmində ərazi iddialarının qarşılığında həssas elmi məsələ olanNaxçıvan Xanlığı və bu diyarı idarə etmiş sülalənin şəcərəsinə (XVIII-XIX yüzillər), eləcə də Naxçıvan diyarının idarəçiliyində üst səviyyədə olmuş vəkillərin (sultanların) şəcərəsinə dair bir sıra tədqiqatlar son dövrdə bir-birinin ardınca işıq üzünə çıxmışdır[15].Eləcə də, Qarabağ Xanlığı, Gəncə Xanlığı, İrəvan Xanlığı, Bakı Xanlığı, Şəki Xanlığı, Talış Xanlığı, Quba Xanlığı, Şamaxı Xanlığı və bir sıra xırda feodal mülkləri barədə bir-birinin ardınca ortaya çıxan əsərlər şəcərə komponentləri ilə müşayiət olunur[16]. Ümumən Azərbaycan hökmdar sülalələrinin

---

[14] Гумилев, Л.Н. Хунну. Срединная Азия в древние времена. Москва: Издательства восточной литературы.1960. – с. 285-288.

[15]Əliyev, F., Əliyev, M. Naxçıvan xanlığı. –Bakı: Şərq-Qərb, –2007. –120 s.; Исмаилов, Э.Э., КулиевМ.Р. Родословная Келб-Али хана Кенгерли // Известия Азербайджанского историко-родословного общества. –Баку: Выпуск 8, –2012. –стр.78-89; Нагдалиев, Ф. Ф. Ханы Нахичеванские в Российской Империи/ Ф. Ф.Нагдалиев. – Москва: «Новый аргумент», –2006. –432 с.; Тбилисская коллекция персидских фирманов. (Составители: Магали Тодуа, Исмаил Шамс). В двух томах. Том II. –Тбилиси: из-во Главного архивного управления, –1989. –1176 с.; Naxçıvan Ensiklopediyası. Azərbaycan Milli Elmlər Akademiyası. –Bakı: –2002. –s. 357; Naxçıvan Ensiklopediyası. İki cilddə. Cild 2. –Naxçıvan: –2005. – s. 86-87; Umudlu, İ.B. Naxçıvan qəzası Yaycı kəndi üzrə sultanların şəcərəsinə dair // – Bakı: Azərbaycan Arxeologiyası və Etnoqrafiyası. N1, 2019, –s. 120-126.

[16]Исмаилов, Э.Э. Ханы Карабахские и их потомки. Поколенная родословная роспись страшей линии рода //"İRS Наследие".– Баку: N 5 (83), –2016. –стр.52-57; N 6 (84), –2016. –стр.32-38; N 1 (85), –2017. –стр. 20-23.;Babazadə, E. T. Gəncə xanlığının tarixindən / E. T. Babazadə. –Bakı: Şərq-Qərb, –2012. – 234 s.;Əliyev, F.M., Həsənov, U.D. İrəvan Xanlığı. –Bakı: Şərq-Qərb, –2007. –144 s.; Aşurbəyli, S.B. Bakı şəhərinin tarixi (orta əsrlər dövrü). *Tərcümə: İsmayıl Umudlu.* /S.B. Aşurbəyli. –Bakı: Əbilov, Zeynalov və oğulları, –2006. –350 s.;Fateh, Kərim ağa. Şəki xanlarının müxtəsər tarixi. Hacı Seyid Əbdülhəmid. Şəki xanları və onların nəsilləri.– Bakı: "Azərbaycan Milli Enskilopediyası" Nəşriyyat-Poliqrafiya Birliyi, –1993. –32 s.; İsmayıl, M. və Bağırova, M. Şəki Xanlığı. - Bakı: Azərbaycan Dövlət

şəcərəcədvəllərini cəm halda əks etdirən nəşr[17], çarizm və Zaqafqaziyanın (Güney Qafqaz) ali müsəlman zümrəsi, onun torpaq və şəxsi hüquqlar probleminə toxunan, şəcərə mövzusuna dəxli olan tədqiqatlar[18] vardır. Eləcə də, hərbi-siyasi konfliktdə olduğumuz ermənilərin etno-siyasi "nəsil şəcərəsi" azərbaycanlı tədqiqatçılar tərəfindən araşdırılmış, bu nəticəyə gəlinmişdir ki, köklü Qarabağ erməniləri xristian albanların törəmələridir, ermənilərin Qafqazda etno-genetik kökləri yoxdur, gəlməelementdir, onlar tarixən Balkanlardan Şərqi Anadoluya, oradan isə Qafqaza nüfuz etmişlər[19]. Dolayısı ilə tarixi Qazaxın etnik keçmişində onların yer alması istisnadır.

Ötən yüzillərin hakim sülalələrinə dair bütün bu şəcərə komponentləri təqdim olunan mövzu ilə bilavasitə bağlı olmasa da, milli şəcərəçilik ənənəsinin ifadəsinə, milli tarixşünaslıqda şəcərələrə maraq göstərilməsinə, tədqiq edilən tarixi mövzunu tamamlayan vacib bir element olaraq şəcərələrə önəm verilməsinə misallardır və ölkəmiznin keçmişindəki ağa/bəy soylarının şəcərələrinə elmi marağı stimullaşdırmışdır. Misal olaraq, keçmişin ağalar/bəylər zümrəsinə aid soyların şəcərələrinin öyrənilməsi məcrasında Sara Aşurbəylinin "Bakı şəhərinin tarixi" əsərinə əlavə və tamamlayıcı element olaraq "Əsilzadə Aşurbəyovlar nəsli: aristokratlar, sənayeçilər, mesenatlar, maarifçilər" bölməsində Aşurbəyovlar genealoji salnaməçilik aspektində təqdim olunur[20].Tarixi maraq doğuran element ondan ibarətdir ki, soyun mənşəyi Nadir şahın əmizadəsi, qoşun

---

Nəşriyyatı, −1997. −76 s.; Исмаилов,Э. Э.Генеалогия Талышинских-Талышхановых / Э. Э. Исмаилов. −Баку: 2001. −80 с.; Mustafazadə, T. T. Quba xanlığı / T.Mustafazadə. − Bakı: Elm, −2005. −480 s.;Bayramova, N. Ş. Şamaxı xanlığı / N. Ş.Bayramova. − Bakı: Təhsil, −2009. −396 s.

[17] Исмаилов,Э.Э. Правители Азербайджана. Хронологические и родословные таблицы / Э.Э. Исмаилов. − Баку: Из-во "Ay-Ulduz", −1998. −72 с.

[18]Мамедов, Э. С. Царизм и высшее мусульманское сословие Закавказья (Проблема сословно-земельных отношений. Начало XIX в. – 1917 г.). Автореферат/ Э. С.Мамедов. − Баку: −1987. −26 с.

[19]Вердиева, Х.Ю., Гусейнзаде, Р.А. «Родословная» армян и их миграция на Кавказ с Балканы/ −Баку: Элм, −2013. −216 с.

[20] Aşurbəyli, S.B. Bakı şəhərinin tarixi (orta əsrlər dövrü). *Tərcümə: İsmayıl Umudlu.* /S.B. Aşurbəyli. −Bakı: Əbilov, Zeynalov və oğulları, −2006. − s.371-392.

böyüklərindən olan Aşur xan Avşardan başlanır və müvafiq şəcərə cədvəli verilir[21]. Aşurbəyovların şəcərəsi Azərbaycan və rus dillərində ayrıca kitab şəklində də nəşr edilmişdir[22].

Professional şəcərəçilərin ilk dəstəsinin (Eldar E. İsmayılov, Ədalət Tahirzadə, Kamran Qacar, Çingiz Ənvəroğlu, bu sətirlərin müəllifi və b.) əsilzadə soyların şəcərələrinə dair ilkin tədqiqatları Azərbaycanın bütün tarixi bölgələrini əhatə edir. Yeni nəsil Azərbaycan şəcərəçilərinin son dövrdə nəşr etdirdikləri bu tədqiqatlarda, eləcə də Azərbaycan Tarixi Şəcərə Cəmiyyəti "Xəbərlər"inin buraxılışlarında ağalıq/bəylik soylarına dair xeyli material dərc olunmuşdur.

Qazax qəzasının əsilzadə soylarının şəcərələrinin öyrənilməsinə gəldikdə, bəzi təşəbbüslər, cəhdlər yox deyildir. Məsələn, Dilbazoğulları soyunun tarixi keçmişinin şəcərəvi təsvirini verməyə ilk dəfə Mirvarid Dilbazi 90-cı illərin əvvəllərində cəhd göstərmişdir. Lakin müəllif məlumatlı şəxslərdən topladığı bilgilər çərçivəsində ata-babaları haqqında bəzi şəcərəvi təfsilatları qələmə almaqla kifayətlənmişdir[23]. Qazax qəzasının digər bir bəylik soyu - Qiyasbəylilər barəsində professor Mərziyə Qiyasbəylinin genealoji təsvir xarakterli məqaləsi də (cədvəlsiz) vardır[24]. Bu situasiyanı göz önündə tutduqda Qazax qəzası üzrə əsilzadə soyların şəcərələrinin kompleks şəkildə öyrənilməsi faktik olaraq diqqətdən kənarda qalmışdır.

**Tədqiqatın obyekti və predmeti.**

Tədqiqatın obyekti tarixən Qazax (mahalı) qəzası üzrə ağalar/bəylər zümrəsini təmsil edən soyların, onun predmeti isə Qazax qəzası üzrə əslən ağalıq/bəylik soylarının – Vəkilovlar; Şıxlinskilər; Axundovlar; Almərdanbəyovlar; Dilbazovlar; Sübhanverdixanovlar; Qiyasbəyovlar; Paşayevlər; Hacıqasımovlar; İsgəndərbəyovlar;

---

21 Yenə orada. –s. 393-394

22 Aşurova, S. Aşurbəyovlar / S.Aşurova. – Bakı: "Parni iz Baku" Nəşriyyat Evi, –2008. –120 s.

23 Dilbazi, M.P. Bənövşələr üstə göz yaşları / M.Dilbazi. –Bakı: Gənclik, –1995. –128 s.

24 Qiyasbəyli M. İctimai fikir tariximizdən / Fəridə Ləman. Həsən ağa Qiyasbəyli. –Bakı: Sabah, –1996. –s. 4-18.

Kəsəmənskilər; Alinaqovlar; Cəfərbəyovlar; Nəbiyevlər; eləcə də Qazax qəzası üzrə əslən ağalardan sayılmayan maaflardan (tarxanlardan) hərbi xidmətlərinin qarşılığında Zaqafqaziya diyarının rus idarəçiliyi tərəfindən bəylər/ağalar zümrəsinə daxil edilmiş soyların – Alaybəyovlar; Vidadov-Müftizadələr; Qayıbovlar; Gülməmmədovlar; Şərifovlar; Miralayevlər; Usubovlar; Ağamalovlar; Kərbəlayevlər; Muradovların şəcərələr təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.**

Dissertasiyanın məqsədi Qazax qəzası üzrə əsilzadə soyların şəcərələrini tarixi-etnoqraik baxımdan tədqiq etməkdir.

Dissertasiyanın məqsədindən irəli gəlməklə, tədqiqat işinin əsas vəzifələri kimi qarşıya qoyulmuşdur:

- yerli əsilzadəliyin formalaşmasını və milli şəcərə ənənəsini tarixi-müqayisəli mövqedən araşdırmaq;
- tədqiq olunan əsilzadə soyların sosial iyerarxiyadakı mövqeyini və zümrədaxili kateqoriyalarda yerini aydınlaşdırmaq;
- ilk orta əsrlərdən milli şəcərə ənənəsini izləmək və idarəetmə praktikasında şəcərəyə verilən önəmi müəyyən etmək:
- vaxtaşırı baş vermiş əhali yerdəyişmələrinin məhəlli əsilzadə soyların şəcərələrinə təsirini öyrənmək;
- şəcərələrdə ailə və nikah məsələlərini tədqiq etmək;
- Qazax qəzası üzrə əslən ağalıq/bəylik soylarının şəcərələrini xronoloji ardıcıllıqla tədqiq etmək, onların şəcərə cədvəllərini tərtib etmək;
- Qazax qəzası üzrə əslən ağalardan sayılmayan maaflardan müəyyən xidmətlərinin qarşılığında rus idarəçiliyi tərəfindən ağalar/bəylər zümrəsinə daxil edilmiş 10 soyun şəcərələrini xronoloji ardıcıllıqla araşdırmaq, onların şəcərə cədvəllərini tərtib etmək;
- şəcərə detallarının dəqiqləşdirilməsində etnoqrafik materialları, yerli epiqrafik abidələrin mətnlərini tədqiqata cəlb etmək;
- tamamlayıcı element qismində illüstrativ materiallar seçmək və onları sistemləşdirmək.

**Tədqiqatın metodları.**

Dissertasiya işinin metodoloji təməlində Ulu Öndər Heydər Əliyev tərəfindən əsaslandırılmış azərbaycançılıq ideologiyası dayanır. Tədqiqat zamanı bu metodlardan: 1) Toplanmış faktları və materialları

ümumiləşdirməyə və müqayisəli təhlilə cəlb etməyə imkan verən tarixi-müqayisəli; 2) Tədqiqat obyektini hərtərəfli öyrənməyə imkan verən sistemli və kompleks yanaşma;3) Şəcərə cədvəllərini ("adı bilinən ən uzaq əcdaddan bu günkü törəmələrə doğru" məqbul şəcərə növünü) xronoloji ardıcıllıqda tərtib etməyə imkan verən tarixi-xronoloji metodlardan istifadə edilmişdir.

Tədqiqatın gedişində şəcərələrin ayrı-ayrı struktur komponentləri haqqında məlumat toplamaq məqsədilə tarixi-etnoqrafik araşdırmalardan, etnoqrafik materiallar toplanışının ekspedisiya tipindən, sorğu və müsahibə (informatorlarla iş) formalarından da yararlanılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

Tarixi-coğrafi anlayış olaraq Azərbaycanın ərazisini təşkil etmiş ayrı-ayrı bölgələrin etnik və siyasi tarixinin öyrənilməsini vacib məsələ hesab etməklə, bu müddəalar müdafiəyə çıxarılır:

-Əsilzadəlik, mənsəblər sistemi və şəcərə Azərbaycanda ümumən Türk dövlətlərində tarixən mövcud olmuş sistem və ənənədən, idarəetmədə istifadə olunmuş siyasi praktikadan, XIX yüzildən etibarən isəAvropa monarxiyalarında və onların sistemli yanaşma qaydalarının iqtibas olunduğu Rusiyadakı əsilzadəlik və şəcərə praktikasından kənarda deyildir;

- Ərazilərinin hazırda üç dövlət arasında paylanmış olduğu, türk-müsəlman etnik ünsürünün dominantlığının erkən orta əsrlərdən bəri fasiləsiz olaraq izləndiyi tarixi Qazaxda xan və sultanların şəcərələri onların təmsilçilərinin bu inzibati vahiddə tarixən malik olduqları hakim mövqelər barədə ciddi əsaslar verir;

- Orta əsrlərdə Suvarlar ölkəsi, daha sonra Qazax ölkəsi adlanmış feodal mülkünün irsi knyazları, xanları, sultanlarının şəcərəsinin XIX əsr Qazax qəzasıəsilzadə nomeklaturasında yer alansoylar ilə genealoji bağlantısı vardır;

-Qazax qəzası üzrə 14 əslən ağa/bəy soyunun, eləcə də maaflardan (tarxanlardan) bu zümrəyə daxil edilmiş 10 soyun çoxəsrlik xronoloji çərçivəyə malik şəcərələri onların türk etnik mənşəyini təsdiq edir;

-Qazax-Ağstafa bölgəsinin məhəlli epiqrafikası mühüm şəcərəvi bilgi qaynağıdır.

**Tədqiqatın elmi yeniliyi.**

Azərbaycan etnoqrafiya elmində şəcərələrin öyrənilməsinə ilk təşəbbüsün ifadəsi olaraq, dövlətçilik ideyasının daşıyıcısı olan aristokratiya ilə əlaqədə azı iki min il tarixi olan milli şəcərə ənənəmiz ilk dəfə ayrıca diqqət obyekti seçilir, tədqiq olunan mövzu kontekstində Avropa – Rusiya – Azərbaycan xəttində mənsəblər sistemi üzrə ilk dəfə müqayisələr aparılır. Orta əsr tarixi mənbələrimizin şəcərə aspekti bu zəmində ilk dəfə xronoloji qaydada araşdırılır.

Tarixən formalaşmış məhəlli sosial iyerarxiya ilk dəfə elmi təhlilə cəlb olunur, orta əsrlərdə Qazax ölkəsini idarə etmiş xanların və sultanların tədqiq olunan mövzuda təməl təşkil etməklə, mühüm etno-siyasi mahiyyət kəsb edən şəcərəsinə ilk dəfə xeyli dərəcədə aydınlıq gətirilir.

Güney Qafqazın inzibati sistemində 1920-ci ilə qədər mövcud olmuş, əsasən türk-müsəlman əhali ilə məskun qəzalar üzrə əsilzadə bəylik/ağalıq soyları şəcərələrinin indiyədək sistemli şəkildə tədqiq edilmədiyi, ayrıca analitik tədqiqat əsərinin ortada olmadığı əsas götürülməklə, ayrıca Qazax qəzası üzrə tədqiqat işi bu sahədə ilk təşəbbüsdür.

Dissertasiyanın daha bir elmi yeniliyi ondan ibarətdir ki, Qazax və Ağstafa inzibati rayonlarının indiyədək elmi diqqətdən kənarda qalmış çoxsaylı epiqrafikasına diqqət yetirilir, şəcərəsi tədqiq olunan bəylik/ağalıq soylarının keçmişinə aid zəngin epiqrafika qiymətli tarixi-etnoqrafik və genealoji mənbələr olaraq ilk dəfə elmi dövriyyəyə daxil edilir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.**

Tədqiqat işi soy şəcərələrinin öyrənilməsinə milli etnoqrafiyada daha ciddi yanaşmağa, şəcərələrin ölkə üzrə sistemli şəkildə öyrənilməsinə, epiqrafikaya və nekropolistikaya - predmeti qədim yazıların, qədim qəbiristanlıqların təsviri, öyrənilməsi və qorunub saxlanmasından ibarət olan elm sahələrinə diqqətin artırılmasına rəvac verə bilər. Tədqiqatın praktiki əhəmiyyəti ilə əlaqədar tövsiyələr:

- keçmiş Qazax qəzasına bağlı əsilzadə soyların təmsilçiləri tarixən ictimai-siyasi fəallıqları ilə seçildiklərinə, həm ölkəmiqyaslı,

həm də regional hadisələrdə yaxından iştirak etdiklərinə və çox halda aparıcı rol oynadıqlarına, ədəbi-mədəni həyatın bütün sahələrində adları keçdiklərinə görə Azərbaycan tarixinin, ədəbiyyatının və mədəniyyətinin bu və digər mövzularının işlənilməsində;

- Qərb bölgəsinə dair etnoqrafik tədqiqat işlərində;
- fərqli zamanlarda tarixi inzibati vahid - ölkə, liva, sancaq, mahal, distansiya, nahiyə, qəza olaraq Qazax bölgəsinin türk etnik ünsürü ilə məskunluq tarixinin öyrənilməsində;
- azərbaycanlıların etnogenezinə dair elmi mübahisələrin hələ də qaldığını nəzərə aldıqda, bu yöndə aparılan tədqiqat işlərində;
- etnoloji, etno-coğrafi, etno-psixoloji, etno-tarixi, etno-mədəni tədqiqatlarda;
- 1920-ci ilə qədərki Azərbaycan cəmiyyətində sosial təbəqələr, zümrələr haqqında tədqiqat işlərində istifadə edilə bilər.

Dissertasiya işinin təcrübi əhəmiyyəti toplanmış materiallara və gəlinən nəticələrə əsaslanır. Bu nəticələrdən:

- şəcərə cəmiyyətlərinin işində;
- əsilzadə cəmiyyətlərinin qanunla qadağan edilməyən fəaliyyətində;
- genealoji baza bilgilərini zənginləşdirməklə digər soy şəcərələrinin tərtibində;
- daha bitkin özünüeyniləşdirmə (identifikasiya) imkanı yaratmaqla, ailə tarixlərinin öyrənilməsində;
- milli və sahə ensiklopediyaları üçün məqalələr hazırlanmasında;
- şəcərələri tədqiq olunmuş nəsillərin elektron məkanda ayrıca səhifələrinin qurulmasında, onlarda təqdim olunan materialların dəqiqləşdirilməsi və zənginləşdirilməsində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.**

Tədqiqatın əsas nəticələri ayrı-ayrı əsilzadə soyların şəcərələri haqqında azərbaycanca, rusca və ingiliscə kitablar, iki illüstrativ şəcərə cədvəli nəşr olunmuş, etnoqrafik tədqiqat işlərində bölmələr, elmi jurnallarda, elmi konfransların materiallarında hesabat, məqalə və tezis şəklində dərc edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun "Tarixi etnoqrafiya" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın ümumi həcmi.**

Dissertasiya giriş, dörd fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı, informatorların siyahısı, şəcərə cədvəlləri və illüstrasiyalardan ibarətdir. Dissertasiya giriş – 20 513 işarə; I Fəsil – 75 915 işarə; II Fəsil – 73 396 işarə; III Fəsil – 54 539 işarə; IV Fəsil – 36 758 işarə; nəticə – 13 385 işarə təşkil edir. Dissertasiyanın ümumi həcmi 274 506 işarədir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılır, mövzunun öyrənilmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqatın metodları, müdafiəyə çıxarılan əsas müddəaları, elmi yeniliyi, nəzəri-praktik əhəmiyyəti müəyyən olunur, aprobasiyası, dissertasiyanın quruluşu və həcmi haqqında məlumat verilir.

**Dissertasiyanın "Qazax qəzasının bəylər/ağalar zümrəsi və şəcərə məsələsinin mahiyyəti"** adlanan **I Fəsili** altı yarımbaşlığa bölünür. "**Əsilzadəliyə tarixi-müqayisəli baxış**" adlı birinci yarımbaşlıqdaQazax qəzası üzrə əsilzadəlik, şəcərə və şəcərəçilik mədəniyyəti araşdırılarkən əsilzadəlik və şəcərə məsələsində tarixi-müqayisəli baxış bucağından paralellər aparılır.Məhəlli əsilzadə iyerarxiyasının formalaşması və yazılı şəcərə mədəniyyəti bir-biri ilə sıx bağlı olan məsələ kimi qoyulur və bu, yazılı şəcərəçiliyin daha çox hakim sülalələr və əsilzadə soylarla bağlı ənənəvi dünya təcrübəsi olduğu ilə əsaslandırılır.Əsilzadəliyə mənsubiyyətin əsas sübutu isə müvafiq qurum tərəfindən rəsmən təsdiqlənmiş və nəzarətdə saxlanan şəcərədir.

Türklərin tarixində monarxiya hakimiyyətinin, müstəqil dövlətçiliyin Çin tarixçilərinə isnadla Oğuz xaqanla (e.ö. 209-174) başlandığı, onunqanunların (yasa) ilk təsisçisi, nizami hərbi qüvvələrin yaradıcısı olması ilə bərabər, həm dəöz İmperiyasında müxtəlif

zümrələrə və mənsəblərə ad verdiyi, heraldikalarının (bayraq, onqon, tamğa) təyini, bu işin onun varisiGün xan tərəfindən davam etdirildiyi[25] əsas götürülərsə, türklərdə yuxarı təbəqə iyerarxiyasının formalaşmasının, deməli, onun yol yoldaşı olan şəcərəçiliyin ən azından iki min il tarixi vardır. Şəcərə və şəcərəçilik isə hakim zümrənin, yəni dövlətçilik ideyası daşıyıcılarının ayrılmaz ənənəsi kimi üzə çıxır. "Xaqan", "yabğu", "şad", "xan", "xanlar xanı", "ulu bəy", "bəy", "bəylərbəyi", "ağa", "tarxan", "darğa" kimi mənsəb adları – başqa sözlə, əsilzadə zümrəsinə aid titullar erkən orta yüzillərdən bəri Türklərin siyasi tarixini müşayiət edir.Bunlardan bəzilərinin - xan, bəy, ağa, tarxan, darğa kimi qədimmənsəb və titulların Qazax bölgəsinin ictimai-siyasi keçmişində yer alması təbiidir.Qazax qəzası əsilzadələrində ağa, bəy titulunun "Türk-Tatar diplomatiyasına" (Mirzə Kazım Bəy) uyğun olaraq şəxs adından sonra işləndiyini görürük - bu, bir pozulmaz ənənə kimi özünü göstərir.

Orta əsrlər boyunca bütün hökmdar sülalələri, imtiyazlı təbəqə əsil-nəcabət faktorundan istifadə edir, şəcərə onların seçkin bir nəsildən gəldiklərini göstərən sənəd olmaqla, xüsusi önəm daşıyırdı.

Azərbaycanda ümumtürk müstəvisində formalaşmış olan klassik şəcərəçiliyə XIX yüzildə Avropa və Rusiya məzmunlu əsilzadəlik və şəcərəçilik anlayışı nüfuz edir.

**"Sosial iyerarxiya"** adlanan ikinci yarımbaşlıqda göstərilir ki, tədqiqat obyekti olan bu soyların şəcərələrinin əksəri öz bilinən mənşəyini zaman etibarilə Azərbaycan Səfəvilər dövlətinin 235 illik tarixindən (1501-1736) və Nadir şah Avşar dönəmindən, yaxud Rusiya işğalından sonrakı ilk onilliklərdən götürür. Qazax inzibati vahidindəki sosial sistem Səfəvilər dövründəki sosial iyerarxiya sistemindən fərqli deyildi və bu sistem sonrakı Xanlıqlar və Rusiya hakimiyyəti dövründə təməl təşkil etmişdi.

Çar I Nikolayın 1846-cı il peskripti (ali hökm) ilə başlanan prosesin gedişində şəcərələrini tədqiq etdiyimiz Qazax əsilzadə soylarının nomenklaturası qəti olaraq müəyyənləşmiş, onlar müvafiq kəndlər üzrə torpaq mülkiyyətçisinə çevrilmişlər.

---

[25]Mirzə Kazım Bəy. Müridizm və Şamil. Bab və babilər. Uyğurlar. (Tərcümə - İsmayıl Umudlu). – Bakı: Hədəf Nəşrləri, –2015. – s.62-64.

**“Şəcərəçilik ənənəsi və idarəetmə təcrübəsində şəcərə”** adlananüçüncü yarımbaşlıqda qeyd olunur ki,şəcərəçilik və idarəetmə praktikasında şəcərədən istifadə qədim tarixə söykənir. Şəxsin əsil-nəcabətini, seçkin və nüfuzlu bir nəsildən gəldiyini sarayla təmasda olan şəcərəçilər əsaslandırır və bu məqam siyasətdə diqqətə alınırdı.

Klassik Azərbaycan şəcərəçiliyi XIX əsrdə Qafqazın türk-müsəlman aristokratiyasının əmlak və şəxsi hüquqlarının tənzimlənməsi prosesində aktivləşmişdir.

Dördüncü yarımbaşlıq **“Qazax xanlarının, sultanlarının şəcərə məsələsi”**ndən bəhs edir.Orta əsrlərdən Suvarlar ölkəsi, yaxud Qazax ölkəsi deyə tanınan bu tarixi inzibati vahid Hunan qalası,Tavuş qalası, Dilican qalası, Lori qalası kimi mərkəzlərdən irsi hakimlər tərəfindən idarə olunmuşdur. Lakin onların şəcərələrinin fraqmentallığı ilə müqayisədə,Qazax xanları və sultanlarının şəcərəsinin XV-XVII əsrlər dövrünə tarixi mənbələrin imkan verdiyi dərəcədə aydınlıq gətirmək mümkün olmuşdur. Bu sıradan XII əsrdə bölgədə yerləşmiş qıpçaqların (poloveslərin) başçısı Atrak xanın şəçərəsi öyrənilmiş, daha sonra XV-XVII əsr hadisələrində adı çəkilən bir silsilə iri feodalın qohumluq dərəcələrini xeyli müəyyənləşdirmək mümkün olmuşdur[26].

Tədqiqatların gedişində Qazax qəzası üzrə yeni dövr əsilzadə soylarının şəcərələrinin Ağqoyunlu və Səfəvilər dövrünün nüfuzlu türkmən klanlarına - Ustaclı, Qaramanlı, Qaraqoyunlu, Bayandur, Pornaklara bağlandığı öz təsdiqini tapmışdır.

“**Əhali yerdəyişmələrinin şəcərələrə təsiri**”adlı beşinci yarımbaşlıqda şəcərələri etno-tarixilik aspektində öyrənilən Qazax aristokratiyasının (el başçılarının) nomenklaturasında vaxtaşırı baş vermiş dəyişikliyə toxunulur. Misal olaraq Naxçıvan vilayətindəKəngərli eli daxilində şəcərəsi davam edən İsa xan Qazax, Qarabağda Adıgözəlovlar, Cəmillinskilər, Mirzəxanovlar göstərilə bilər[27].

---

[26] Umudlu, İ.B. Qazax xanlarının, sultanlarının şəcərəsi haqqında // − Bakı: AMEA Tarix İnstitutu, Elmi əsərlər, −2019, cild 78. −s. 126-134.

[27] Тбилисская коллекция персидских фирманов. (Составители: Магали Тодуа, Исмаил Шамс). В двух томах. Том II. −Тбилиси: из-во Главного архивного управления, −1989.с.2, − 85; Ziyadlı, A.Ə. Adıgözəlovlar – Mirzə

Bütün dünyada ailə və nikah şəcərələrin tədqiqində mühüm faktor kimi qəbul olunduğundan, "**Şəcərələrdə ailə və nikah faktoru**" adlı altıncı yarımbaşlıqda Qazax qəzası əsilzadə ailələrinin tərkibi bu baxımdanizlənir. Bütün Azərbaycanda olduğu kimi, monoqam (təkkəbinlilik) ailələrin üstünlük təşkil etdiyi müəyyən olunur.Bu müsəlman mühitində qarışıq etnik nikahlar məsələsindən bəhs olunarkən, nüfuzlu ailələrin timsalında rus, gürcü, alman, fransız qızları və s. ilə nikahlara misallar gətirilir.[28]

Sıravi azərbaycanlı ailələr kimi, yerli mühitinbir çox əsilzadə ailələrinə çoxuşaqlılıq xas idi[29]. Şəcərələrin işlənməsində bu təfsilatların nəzərə alınması lazım gəlir.

Qazax qəzasının şəcərəsi tədqiq olunan 24 bəylik/ağalıq soyundan 19-u məzhəbi mənsubiyyət etibarilə sünnilər, 5-i isə şiələr idi. O dövrdə müsəlman cəmiyyətində bu məsələyə ciddi baxılsa da, Qazax əsilzadə soyları mühitindəki evliliklərdə din və məzhəb mənsubiyyətinə o qədər də məhəl qoyulmadığı müşahidə olunur.

---

Adıgözəl bəyin nəsli (onun oğlu Haqverdi bəyin qolu) // Bakı: Azərbaycan Tarixi Şəcərə Cəmiyyətinin xəbərləri. Birinci buraxılış. −2000. İsmayılqızı, V. Goranboy. Ensiklopedik toplu/ V.İsmayılqızı. − Bakı: İsmayıl, −2000. −s.223-239; Мустафаев, А.Ф. Джамиллинские и их потомки // Azərbaycan Tarixi Şəcərə Cəmiyyətinin xəbərləri. Onuncu buraxılış. −Bakı: Nurlan, −2018. −s. 5-57;Umudlu, İ.B. Qazaxdan məcburi köçürmələr, miqrasiya və mühacirət haqqında (tezislər) / − Bakı, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun nəşri olan, Heydər Əliyevin hakimiyyətə gəlməsinin 50 illiyinə həsr olunmuş "2018-ci ildə Azərbaycanda aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunları mövzusunda Elmi Sessiyanın materialları". 12 iyun 2019-cu il. −s. 107-109.

[28] Umudlu, İ.B. Vəkiloğulları. Əsilzadə soyun tarixi və şəcərəsi. (təkmilləşdirilmiş nəşr). Ön söz – akademik Teymur Bünyadov / İ.Umudlu. −Bakı: Apostroff, −2016. − s. 152-154; −s.535;Umudlu, İ.B. Dilbazilər. Tarixi-bioqrafik araşdırma / İ.Umudlu. −Bakı: Əbilov, Zeynalov və oğulları, −2007. −s. 311-312; Umudlu, İ.B. Dağ Kəsəmən. Yurd bilgisi, insanlar, talelər / İ.Umudlu. − Bakı: Apostrof, −2009. −s.123.

[29] Umudlu, İ.B. Dağ Kəsəmən. Yurd bilgisi, insanlar, talelər / İ.Umudlu. − Bakı: Apostrof, −2009. −s.182; Umudlu, İ.B. Şıxlinskilər. Etno-tarixi və genealoji rakurs. Ön söz – akademik Teymur Bünyadov / İ.Umudlu.− Bakı: Apostroff, −2015. – s. 350, 548; Umudlu, İ.B. Vəkiloğulları. Əsilzadə soyun tarixi və şəcərəsi. (təkmilləşdirilmiş nəşr). Ön söz – akademik Teymur Bünyadov / İ.Umudlu. −Bakı: Apostroff, −2016. − s. 72-73.

**"Əslən bəylik/ağalıq soylarınınşəcərələri" adlanan II Fəsildə** göstərilir ki, Gürcüstan və onun tərkibində Qazax digər türk-müsəlman mahalları ilə birlikdə 1801-ci ildə Rusiyaya birləşdiriləndən sonra gürcü knyazları, tavadları, aznaurları ilə müqayisədə türk-müsəlman mahallarının sultanları, bəyləri, ağalarının hüquqi vəziyyətlərinin tənzimlənməsi uzun bir vaxt aparmışdır. Qafqazın Rusiya imperiyasına birləşdirilməsinə qədər mövcud olmuş yuxarı zümrənin torpaq-mülkiyyət və şəxsi hüquqlarının yeni şərtlər əsasında təsbit olunmasına çar hökuməti bir-biri ilə sıx bağlı olan siyasi məsələ kimi yanaşmışdır.

Çar I Nikolayın Sibirə və Rusiyanın digər yerlərinə sürgün edilmiş xanların, ağaların, bəylərin geri qayıdışına icazə verən 13 iyul 1830-cu il tarixli fərmanından sonra azərbaycanlıların bu hakim təbəqəsinə münasibətdə bir yumşalma baş verir. Bu öz ifadəsini senatorlar qraf P.İ.Kutaysov və Y.İ.Meçnikovun 1833-cü ildə tərtib etdikləri və çarizmin Qafqazda müstəmləkə siyasətini uğurla gerçəkləşdirməyə yönəlik "Zaqafqaziya diyarı idarəetmə sisteminin yenidən qurulması haqqında xüsusi mülahizələr" adlı layihədə tapırdı. Bu yumşalma Qafqazda yerli torpaq sahibliyini tam ləğv etməklə, yeni yaradılan hər qəzada 5 dvoryan olmaqla və sonra istefaya çıxan rus hərbi qulluqçuları da buraya əlavə etməklə, rus dvoryan təbəqəsini formalaşdırmaq niyyəti[30] alınmadıqda baş vermişdi.

Layihənin hazırlanması işinə cəlb olunmuş polkovnik Abbasqulu ağa Bakıxanov keçmiş zamanlarda müsəlmanların yuxarı zümrəsi ilə bağlı vəziyyətə aydınlıq gətirərkən göstərirdi ki, *"son zamanlar İranda və Qafqazda əsilzadə zümrəsinin daşıdığı mənsəblərdə elə dolaşıqlıq və qarışıqlıq yaranıb ki, təkcə adla hər şəxsin yerini müəyyənləşdirmək olmur"*, və optimal yol təklif edirdi: *"şahların və xanların XVIII əsrin sonlarınadək öz baratlarında şəxslərə verdikləri titulları nəzərə almaq gərəkdir"*[31].

Çar hökumətinin aşkar tərəddüdlərindən sonra Zaqafqaziyanın (Cənubi Qafqaz) müsəlman qismlərində Rusiya ilhaqına qədər mövcud

---

[30]Колониальная политика русского царизма в Азербайджане в 20-60-х годах XIX в. Часть I, Феодальные отношении и колониальный режим. 1827-1843 гг. –М.-Л.:Из-во Академии наук СССР, –1936. –s.41-91.

[31]Yenə orada.– s. 142

olmuş yuxarı zümrənin torpağa mülkiyyət hüquqlarının yeni şərtlər əsasında təsbit olunmasının (1846) ardınca onların şəxsi hüquqlarının da müəyyən edilməsi gündəmə gəlmişdi. Bu məsələ Tiflis Bəy Komissiyasının fəaliyyətinin gedişində öz həllini tapır. Tiflis Bəy Komissiyası 1865-ci ildən işə başlamaqla[32], 60 ildən bəri həlli uzadılan problemə bir neçə il ərzində qəti olaraq aydınlıq gətirmişdir.

Bu fəslin**"Tiflis Bəy Komissiyasının müəyyən etdiyi soyadlar spektri"**adlı birinci yarımbaşlığında müsəlman yuxarı zümrəsinin Qafqazın Rusiya İmperiyasına birləşdirilməsinə qədər mövcud olmuş torpaq-mülkiyyət və şəxsi hüquqlarının yeni şərtlər əsasında həll olunması üzərində dayanılır. Çar hökuməti üçün bu son dərəcə mürəkkəb siyasi məsələ Tiflis Bəy Komissiyasının fəaliyyəti dövründə öz əsaslı həllini tapır. Komissiyanın fəaliyyəti nəticəsində ümumilikdə Gürcüstanın tərkibində keçmiş "Tatar distansiyaları" - Qazax, Borçalı və Şəmsəddin, eyni zamanda Trialet pristavlığı ilə birlikdə Sartçala bölgəsi üzrə əslən ağa/bəy, yəni rus anlamında dvoryan sayılan 57 soy arasında[33] Qazax mahalı zəminində 14 əsilzadə soy müəyyən olunur. Daha sonra onların şəcərə problemini çözməyə təşəbbüs edilir. Əslən bəylər/ağalar («родовые агалары») kateqoriyasındakı bu 14 soyun - Vəkilovlar, Şıxlinskilər, Dəmirçilərskilər, Almərdanbəyovlar, Dilbazovlar, Sübhanverdixanovlar, Qiyasbəyovlar, Paşayevlər, Hacıqasımovlar, İsgəndərbəyovlar, Kəsəmənskilər, Alinaqovlar, Cəfərbəyovlar və Nəbiyevlərin şəcərələrinə tarixi etnoqrafik və genealoji maraq əsaslandırılır və onların hər biri ayrılıqda icmal şəklində təsvir edilir.

**"Əslən ağalıq/bəylik soylarının şəcərəsi ilə bağlı vəziyyət"** adlı ikinci yarımbaşlıqda tədqiq olunan soyların şəcərələri tarixi-etnoqrafik aspektdən araşdırır. Şəcərələrin xronoloji çərçivəsi təqribi

---

[32]Кавказский Календарь на 1870-й год. 2-й часть.−Тифлис, −1869.− s.14.

[33] Справочный и сводный именной список родов лиц высшего сословия в мусульманских частях Закавказского края, причисленных к сословию агаларов и беков (по категориям).– Тифлис //Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Фонд 1, siyahı 1, s.v.255.

olaraq bu şəkildə müəyyənləşir: Vəkilovlar – 400 il[34]; Şıxlinskilər – 600 il[35]; Dəmirçilərskilər – 350 il; Almərdanbəyovlar – 250 il; Dilbazovlar – 350 il[36]; Sübhanverdixanovlar – 350 il[37]; Qiyasbəyovlar – 350 il[38]; Paşayevlər – 300 il[39]; Hacıqasımovlar – 350 il; İsgəndərbəyovlar – 300 il; Kəsəmənskilər – 350 il; Alinaqovlar – 300 il[40]; Cəfərbəyovlar – 250 il; Nəbiyevlər – 350 il.

Onlardan bəzilərinin şəcərə cədvəlləri tam, bəziləri çox və ya az dərəcədə tərtib olunmuş, illüstrativ materiallarla tamamlanmışdır[41].

**"Əslən ağa olmayan ağalıq soylarının şəcərələri" adlanan III Fəsildə** əslən ağa olmayan, lakin dövlət qarşısında xidmətlərin - əsasən də hərbi xidmətlərin qarşılığında rus hakimiyyətinin Qazax mahalı/qəzasından ağalar/bəylər zümrəsinə aid etdiyi maafların müvafiq təsnifatında 10 soyun («неродовые агалары») yeri müəyyən edilmişdir.

Ümumilikdə keçmiş Qazax mahalı zəminində mənşəcə tarxan/maaf olan 10 soyun - Alaybəyovlar, Vidadov-Müftizadələr, Qayıbovlar, Gülməmmədovlar, Şərifovlar, Miralayevlər, Usubovlar, Ağamalovlar, Kərbəlayevlər, Muradovların şəcərəsi tədqiqata cəlb edilmişdir.

---

[34]Umudlu, İ.B. Vəkiloğulları. Əsilzadə soyun tarixi və şəcərəsi. (təkmilləşdirilmiş nəşr). Ön söz – akademik Teymur Bünyadov / İ.Umudlu. –Bakı: Apostroff, –2016. – s. 20.

[35] Umudlu, İ.B. Şıxlinskilər. Etno-tarixi və genealoji rakurs. Ön söz – akademik Teymur Bünyadov / İ.Umudlu.– Bakı: Apostroff, –2015. – s. 13.

[36] Umudlu, İ.B. Dilbazilər. Tarixi-bioqrafik araşdırma / İ.Umudlu. –Bakı: Əbilov, Zeynalov və oğulları, –2007. –s. 35-44

[37] Umudlu, İ.B. Abdulla bəy Divanbəyoğlunun nəsil şəcərəsi // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası. Xəbərlər. Humanitar elmlər. N 1, –2016. –s. 57-61.

[38] Umudlu, İ.B. Dağ Kəsəmən. Yurd bilgisi, insanlar, talelər / İ.Umudlu. – Bakı: Apostrof, –2009. –s.82.

[39]Umudlu, İ. B. Salahlı eli. Etnoqrafik araşdırma / İ.Umudlu. –Bakı: Apostroff, –2011. –s.579.

[40]Yenə orada. – s. 519.

[41] Umudlu, İ.B. Vəkiloğulları (Vəkilovlar). Şəcərə cədvəli. XVII-XXI yüzillər. illüstrativ nəşr / İ.Umudlu. –Bakı: Apostroff MMC. –2016; Umudlu, İ.B. Dilbazoğulları (Dilbazilər). Şəcərə cədvəli. XVII-XXI yüzillər. illüstrativ nəşr / İ.Umudlu. –Bakı: Apostroff MMC. –2017.

Tədqiq olunan soyların şəcərələrinin xronoloji çərçivəsi bu şəkildə müəyyənləşir: Vidadov-Müftizadələr – 600 il[42]; Qayıbovlar – 300 il[43]; Alaybəyovlar – 300 il[44]; Gülməmmədovlar – 350 il[45]; Miralayevlər – 350 il[46]; Usubovlar – 250 il[47]; Şərifovlar – 250 il; Ağamalovlar – 250 il; Kərbəlayevlər – 250 il; Muradovlar– 350 il[48].

**"Şəcərələrin işlənməsində epiqrafik abidələrin rolu" adlanan IV Fəsildə** Qazax və Ağstafainzibati rayonları kəndlərinin köhnə nekropollarında XVIII-XX yüzilin əvvəllərini əhatə edən zaman kəsiminə aid hədsiz sayda müsəlman epiqrafik abidələrinin ərəbcə-türkcə-farsca korpus yazıları tədqiqata cəlb edilmişdir. Bu abidələrdəki yazılar gözdən keçirilən soyların şəcərələrinə dair xeyli genealoji material vermişdir.[49]Epiqrafik yazıların Azərbaycanın digər bölgələrindəki bu tip abidələrdən başlıca fərqi burada ərəbcə ənənəvi ifadə formasına əsasən riayət edilsə də, dünyasını dəyişmiş şəxsi səciyyələndirən, tanınmış yerli şairlərin qələminə məxsus məzmunlu epitafiyalar əksər hallarda türkcə, bəzi hallarda farsca yazılmışdır.[50]

---

42 Umudlu, İ.B. Molla Vəli Vidadinin şəcərəsi // – Bakı: "Folklor və Etnoqrafiya". Beynəlxalq elmi jurnal. N 1, – 2017. – s. 61-69.

43 Umudlu, İ. B. Qayıboğulları //Azərbaycan Tarixi Şəcərə Cəmiyyətinin Xəbərləri - Известия АИРО toplusu, Səkkizinci buraxılış. – Bakı, Adiloğlu, – 2012. – s.90-100.

44 Umudlu, İ. B. Salahlı eli. Etnoqrafik araşdırma / İ.Umudlu. –Bakı: Apostroff, –2011. –s.515-518.

45Yenə orada. – s. 588-601.

46Yenə orada. – s.561-578.

47Yenə orada. – 703-708.

48 Umudlu, İ.B. Dağ Kəsəmən. Yurd bilgisi, insanlar, talelər / İ.Umudlu. – Bakı: Apostrof, –2009. –s.177-233.

49 Umudlu, İ.B. Şəcərələrin öyrənilməsində epiqrafik abidələrin rolu (Qazax bölgəsi üzrə materiallar əsasında) // Bakı: Azərbaycan Arxeologiyası və Etnoqrafiyası. N1, 2015. Səh.128-135.

50 Umudlu, İ.B. Qazax-Ağstafa bölgəsinin epiqrafikasında farsdilli mətnlər //– Bakı: AMEA Akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu. AMEA-nın həqiqi üzvü, Sovet İttifaqı Qəhrəmanı Z.M.Bünyadovun xatirəsinə həsr olunmuş "Müasir şərqşünaslığın aktual problemləri" mövzusunda Beynəlxalq Elmi Konfransın (16-17 oktyabr 2017-ci il) materialları. – "Papirus NP", –2018. 584 s. –s. 106-109.

**"Nəticə"** bölməsində qarşıya qoyulmuş məqsəd və vəzifələrə yekun vurulur, başlıca elmi nəticələr ümumiləşdirilir. Fərqli dillərdə olan materiallar və mənbələrə, bölgənin epiqrafik mətnlərinə, məlumatlı şəxslərlə müsahibələrə isnad edərək apardığımız araşdırmalar keçmiş Qazax qəzası üzrə əsilzadə soyların şəcərələri ilə bağlı bir sıra nəticələrə gəlməyə əsas verir ki, bunları aşağıdakı şəkildə qeyd etmək olar:

-Əsilzadəlik və şəcərə ənənəsi bir-birindən ayrılmaz olduğu, əsilzadəlik, mənsəblər sistemi və şəcərənin Azərbaycanda, ümumən Türk dövlətlərində tarixən mövcud olmuş sistem və ənənədən, idarəetmədə istifadə olunmuş siyasi praktikadan, XIX yüzildən etibarən isə Rusiyadakı əsilzadəlik və şəcərə praktikasından kənarda deyildir;

- İlk orta əsrlərdən Suvarlar ölkəsi, daha sonra Qazax ölkəsi adlanmış feodal mülkünün irsi knyazları, xanları, sultanlarının şəcərəsinin XIX əsrdə qəti olaraq müəyyənləşən Qazax qəzası əsilzadə nomeklaturasında yer alan, bir-birləri ilə sıx qohumluq münasibətlərində olan soylar ilə genealoji bağlantısı vardır;

- Tarixi Qazaxın keçmiş əsilzadə xan, sultan, ağa-bəy soylarının şəcərələrinin kökü yüzilliklərin dərinliklərinə işləyir və milli etnik kökə mənsubdur;

- Məhəlli epiqrafika öz zənginliyi ilə mühüm şəcərəvi bilgi qaynağıdır.

Tədqiq olunmuş soyların müəllif tərəfindən tərtib olunmuş şəcərələri və illüstrasiyalar sonda əlavə şəklində verilir.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**


1. Salahlı eli. Etnoqrafik araşdırma. – Bakı: Apostroff, –2011. – 912 s.
2. Qayıboğulları //Azərbaycan Tarixi Şəcərə Cəmiyyətinin Xəbərləri - Известия АИРО toplusu, Səkkizinci buraxılış. – Bakı, Adiloğlu, – 2012. – s.90-100.
3. История дворянского рода Дильбази. Историко-биографический ракурс. Предисловие – Адалет Тагирзаде, доктор философии по филологии, действительный член Азербайджанского историко-родословного общества (АИРО). – Баку: Apostroff. – 2014. –176 с.
4. Şıxlinskilər. Etno-tarixi və genealoji rakurs. Ön söz – akademik Teymur Bünyadov. – Bakı: Apostroff, – 2015. – 676 s.
5. Şəcərələrin öyrənilməsində epiqrafik abidələrin rolu (Qazax bölgəsi üzrə materiallar əsasında) // –Bakı, Azərbaycan Arxeologiyası və Etnoqrafiyası. № 1, 2015, – s. 128-138.
6. Abdulla bəy Divanbəyoğlunun nəsil şəcərəsi// – Bakı, Azərbaycan Milli Elmlər Akademiyası. Xəbərlər. Humanitar elmlər. № 1,– 2016. – s. 57-61.
7. Qazax qəzası üzrə əsilzadə şəcərələrinin tədqiqinə dair// – Bakı, Azərbaycan Arxeologiyası və Etnoqrafiyası. № 2, –2016, – s. 181-186.
8. Vəkiloğulları. Əsilzadə soyun tarixi və şəcərəsi. (təkmilləşdirilmiş nəşr). Ön söz – akademik Teymur Bünyadov.– Bakı: Apostroff, – 2016. –584 s.
9. Türk-müsəlman əhaliyə qarşı 1914-1920-ci illər soyqırımı və bu hadisələrin Qazax qəzasında əks-sədası //"Azərbaycan və Şərqi Anadoluda Türk-Müsəlman əhaliyə qarşı soyqırımlar (1914-1920-ci illər" mövzusuna həsr olunmuş III beynəlxalq elmi konfransın materialları. –Bakı, AMEA Tarix İnstitutunun elmi əsərləri. Xüsusi buraxılış, № 56,57,58, – 2016, – s.608-615.

10. Vəkiloğulları (Vəkilovlar). Şəcərə cədvəli. XVII-XXI yüzillər. *illüstrativ nəşr.* – Bakı: Apostroff MMC. 2016. Təqdimat – AMEA Mərkəzi Elmi Kitabxanası, 23 fevral 2017-ci il.
11. History of the Dilbazi noble family. Historical-biografical perspective. –Praha: Printed in FLASH STYLE ltd. – 2017. (Czekh Republic).–176 p.
12. Dilbazoğulları (Dilbazilər). Şəcərə cədvəli. XVII-XXI yüzillər. *illüstrativ nəşr.* –Bakı: Apostroff MMC. – 2017.
13. Molla Vəli Vidadinin şəcərəsi // – Bakı: "Folklor və Etnoqrafiya". Beynəlxalq elmi jurnal. № 1,– 2017. – s. 61-69.
14. Об истории генеалогической традиции азербайджанцев // – Kyyiv: Hileya. Natsional'nyy pedahohichnyy universitet imeni M.P.Dragomanova, VHO Ukrayins'ka Akademiya Nauk. Vypusk 120 (N 5). – 2017, – c. 116-119.
15. Azərbaycanlı döyüşçü və onun əsgəri keyfiyyətləri haqqında //–Bakı: "Hərbi bilik". Hərbi, elmi-nəzəri, publisistik jurnal. N 4. – 2017. – s. 93-101.
16. Qazax-Ağstafa bölgəsinin epiqrafikasında farsdilli mətnlər / Materials International Academic Conference "Contemporary research issues of Opiental studies" in memoriam of the full member of the Azerbaijan National Academy of Sciences, Hero of the Soviet Union Z.M. Buniatov (16-17 October 2017). s. 106-109. – Bakı: "Papirus NP", –2018. –584 s .
17. Keçmiş Qazax qəzasında əsilzadəlik və şəcərə / AMEA-nın həqiqi üzvü T.Ə.Bünyadovun 90 illiyinə həsr olunmuş elmi sessiyanın materialları. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun nəşri olan "Azərbaycanda Arxeoloji və Etnoqrafik Araşdırmalar" toplusu.– Bakı, 07 fevral 2018-ci il. – s.148-149.
18. XX yüzilin əvvəllərində azərbaycanlıların hərbi mükəlləfiyyətə münasibəti (Yelizavetpol (Gəncə) Süvari Tatar Alayına dair materiallar əsasında) // – Bakı: Azərbaycan Arxeologiyası və Etnoqrafiyası.№ 2.–2018.– s. 136-143.
19. Qazax xanlarının, sultanlarının şəcərəsi haqqında //AMEA Tarix İnstitutu, Elmi əsərlər, –Bakı, 2019, cild 78. – s. 126-134.

20. Naxçıvan qəzası Yaycı kəndi üzrə sultanların şəcərəsinə dair // –Bakı: Azərbaycan Arxeologiyası və Etnoqrafiyası,№1. – 2019, –s. 120-126.
21. Qazaxdan məcburi köçürmələr, miqrasiya və mühacirət haqqında (tezislər) / AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun nəşri olan, Heydər Əliyevin hakimiyyətə gəlməsinin 50 illiyinə həsr olunmuş "2018-ci ildə Azərbaycanda aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunları mövzusunda Elmi Sessiyanın materialları".– Bakı, 12 iyun 2019-cu il. –s. 107-109.
22. О генеалогическом аспекте средневековых азербайджанских источников по истории // – Bakı: "Milli Azərbaycan Tarixi Muzeyi" jurnalı, "Təhsil", – 2021. –s. 20-28.
23. Keçmiş Qazax qəzasında şəxsi möhürlərdən istifadə ənənəsi.// Milli Azərbaycan Tarixi Muzeyi, 2022 s. 15-19
24. Çarlık Rusyası döneminde Güney Kafkasya Türk-Müslüman zümresinin hukuklarının tanziminde şecere aspekti// Ege Zirvesi 8. Uluslararası Sosyal Bilimler Kongresi (2-4 Haziran, 2023). s.300-304

Dissertasiyanın müdafiəsi ______ _______ 2023-cü il tarixində saat ____-da Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan:Az.1143, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun internet saytında yerləşdirilmişdir.

Avtoreferat _____ _____ 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:__.__.2023

Kağızın formatı: A5

Həcm: 39668

Tiraj: 100